# KOSMİK Akademiya 8 beynəlxalq layihə həyata keçirib

**Ötən gün "Azərkosmos"un nəzdində fəaliyyət göstərən regionun ilk KOSMİK Akademiyasının ilk Media Konfransı baş tutdu. Dünya Aviasiya və Kosmonavtika Günü ərəfəsində təşkil edilən bu konfransda yalnız Akademiyanın fəaliyyətini nümayiş etdirməklə kifayətlənmədi, eyni zamanda ölkəmizdə kosmik sənayenin inkişafı istiqamətində atılan strateji addımlar və həyata keçirilən innovativ layihələr barədə mətbuata ətraflı məlumat təqdim edildi.**

Akademiyanın gördüyü işlər vasitəsilə gənc nəsil peyk texnologiyaları, yer müşahidəsi və digər kosmik sahələrlə tanış olmaq imkanı qazanır. Bu da ölkədə kosmik savadlılığın artmasına və elmi-texniki kadrların yetişdirilməsinə böyük töhfədir. Kosmos texnologiyası uzun illər sadəcə "elmi fantastika" kimi görünən bir sahə idisə, artıq Azərbaycanın strateji gündəmində real və prioritet istiqamətə çevrilib.

Tədbirdə "Azərkosmos" Marketinq və korporativ kommunikasiya departamentinin direktoru Fidan Behbudova qeyd etdi ki, Azərbaycanda baş tutan Beynəlxalq Kosmonavtika Konqresi əhəmiyyətli hadisələrdən biri kimi yadda qalmışdır: "Ölkəmizdə kosmik icma ilə baş tutan görüşlər tədbiri daha yaddaqalan etdi. Azərbaycanın kosmik yolu beynəlxalq aləmin kosmik strategiyası ilə uyğunlaşır. Hazırda ölkəmizdəki insan resursu kosmik sahəyə töhfə verən mütəxəssislər yetişdirməyə qadirdir. Kosmos sahəsində biznes, marketinq, satış və digər istiqamətlərdə fəaliyyət göstərən kifayət qədər peşəkarlar da mövcuddur".



KOSMİK Akademiyanın rəhbəri İmran Muxtarov çıxışında diqqətə çatdırdı ki, 2023-cü ildə Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinə 95 ölkədən 3600 elmi məqalə təqdim olunub. Bu, IAC tarixində ölkə sayı ilə bağlı rekord rəqəm idi: "Tədbirə rekord sayda - 214 məqalə ilə qoşulmuş Azərbaycan ən çox elmi məqalə təqdim edən ölkələr siyahısında ABŞ, İtaliya, Hindistan və Çindən sonra beşinci yerdə qərarlaşıb. Sidneydə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə Azərbaycanı təmsil edəcək Milli Elmi Komanda 632 elmi məqalə ilə qoşulub. Bu il Azərbaycan elmi məqalələrin sayına görə digər ölkələr arasında ABŞ-dan sonra ikinci yerdə gəlir".

Azərbaycan Kosmik Akademiyasının 340 orta məktəblə əməkdaşlıq əlaqələri qurduğunu, 14 universitet və 2200 tələbə ilə sıx əməkdaşlıq etdiyini vurğulayıb: "Həmçinin akademiya 9 gənclər təşkilatı ilə birgə layihələr həyata keçirir. 6 aydır fəaliyyət göstərən KOSMİK Akademiya artıq 8 beynəlxalq layihə həyata keçirib".

Daha sonra KOSMİK Akademiya Proqramlar və layihələr üzrə menecer Səkinə Ağalarova Nadirli Akademiyanın layihələri haqqında məlumatlar verdi.

Bunlara APRSAF Kosmik Poster Müsabiqəsi, Beynəlxalq Kosmik Olimpiada, GUHEM, Kosmik Akademiya, MBRSC Təcrübə Mübadiləsi Proqramı, Milli Peyk İnnovasiya Müsabiqəsi, BAK layihəsində Azərbaycanı təmsil edəcək Milli Elmi Komanda layihəsi və Space Camp Türkiyə kimi proqram və layihələr daxildir.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

Respublika .- 2025.- 12 aprel (№ 71).- S.15.